## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İranın Azərbaycan qorxusu

Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə bu ölkənin xüsusi xidmət orqanları tərəfindən hazırlanan xaincəsinə silahlı basqın oldu. Terrorun qarşısını alarkən səfirliyin mühafizə xidmətinin rəisi baş leytenant Orxan Əsgərov şəhid oldu, iki nəfər isə yaralandı. Molla rejimi baş verən terror hadisəsini "məişət" zəminində baş vermiş "hadisə" və ya "insident" adlandırmaqla hücumun əsl mahiyyətindən yayınmağa çalışdı. Bu isə o deməkdir ki, bütün dünyanı silkələyən bu qanlı terror hadisəsinə İran tərəfi məsuliyyətsiz yanaşdı.




Buradan da belə nəticəyə gəlmək olar ki, terroru sifariş verən, onu hazırlayıb həyata keçirən qüvvələr istintaqın da düzgün aparılmasına imkan verməyəcəklər. Olaydan az sonra terrorçunun kamera qarşısında sərbəst görünməsi hər şeyin öncədən planlaşdırılmasından, Yasin Hüseynzadənin arxayınçılığı isə onun həyatına təminat verilməsindən xəbər verirdi. Bütün bu baş verənlər işin görünən tərəfi və eyni zamanda molla rejiminin Azərbaycan xalqına və dövlətinə olan kininin, nifrətinin nəticəsi idi. Haqlı olaraq onda belə bir sual yaranır: molla rejiminin Azərbaycana olan düşmənçiliyinin əsasında nə dayanır?

### İran düşmənçiliyini açıq müstəviyə keçirib

İllərdir İran Cənubi Azərbaycan qorxusu ilə yaşayır. Əhalisinin yarıdan çoxunu azərbaycanlılar təşkil edən bir ölkədə Azərbaycan dilində məktəblərin, dərsliklərin, qəzet və jurnalların olmaması, məktəblərdə Azərbaycan dilində danışmağın yasaq olması fars-molla rejiminin azərbaycanlılara olan nifrətinin və eyni zamanda qorxusunun göstəricisidir. İran Azərbaycanın güclənməsini, nüfuz sahibi olmasını düşmən Ermənistandan da daha çox istəməyən dövlətdir. Elə bu məqsədlə də illərdir Ermənistan faktorundan məharətlə istifadə edərək ölkəmizə qarşı düşmənçilik edir. Torpaqlarımızın işğal olunması və işğal altında qalması üçün illərdir dəridən-qabıqdan çıxır. Ermənistana əsgəri yardımlar göstərir. Silah verir, kəşfiyyat materialları ilə illərdir Ermənistanı təmin edir. Gündən-günə artan gücümüz, hərbi qüdrətimiz İrana dərd olur. 44 günlük müharibədə Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi isə İranı lap çiləδən çıxardı. İran illərdir ölkəmizə qarşı apardığı "gizli" düşmənçiliyini tam açıq müstəviyə keçirdi. Ölkəmizə qarşı təhdidlər artdı. Zəngəzur dəhlizinin özü üçün qırmızı cizgi olduğunu bəyan etdi. Hətta mətbuatda gedən məlumatlara inansaq, Ermənistanın 2020-ci ilin sentyabrında sərhədlərimizdə törətdiyi növbəti təxribat zamanı düşmənə əsgəri qüvvə ilə yardım edərək əlini şəhidlərimizin qanına da buladı.

İran düşünür ki, sərhədlərini 40 milyonluq bir xalqla bir çay ayıran Azərbaycan bir gün ayrılıq həsrətinə son qoya bilər. İndiyə kimi tapdalanmış hüququnu, haqqını tələb edə bilər. Ona görə də İran nəinki şeytanın dostu Ermənistanla, hətta şeytanın özü ilə də müttəfiqlik etməyə hazırdır. Təki Azərbaycanın başı özünə qarışsın. Amma yanılır...

### Zəlzələdən əziyyət çəkənlərin harayı Tehrana "çatmır"

Özünü "islam dövləti" adlandıran İran islami dəyərləri həmişə tapdalayıb, gözdən salıb. Dini ayrı-seçkilik salaraq dindaşlarımız arasında ikitirəlik yaradıb. "İslamçılar"ın hakimiyyətə gəldiyi gündən vuruşduğu, qanını tökdüyü də müsəlmanlar olub. Dini təfriqəçiliklə istədiyini əldə edə bilməyən molla rejimi ölkəsinin ərazisində milli ayrı-seçkilik toxumu səpir. Neçə gündür İranda zəlzələ olub. Köməksiz, evsiz-eşiksiz qalan azərbaycanlıların harayı dağı-daşı yandırsa da, mollaların qulağına gedib çatmır. Evsiz qalan körpə uşaqlar soyuqdan əziyyət çəkir. "İslamçılar" sankı azərbaycanlı körpələrin çəkdikləri zülmdən, zillətdən zövq alır.

Özünü "islamın vəkili", "müsəlmanların hamisi" adlandıran molla rejimi müsəlmanlara qənim kəsilib. İraqda qarşıdurma yaradır, Yəməndə vuruşur, Suriyada qan tökür, Bəhreyndə terror törədir, Livanda terror təşkilatı yaradır, öz ölkəsində ən adi sosial haqqını, hüququnu tələb edən insanları məhkəməsiz dar ağacına çəkir. İran illərdir ki, beynəlxalq hüquqa meydan oxuyur. Dünya birliyi ilə hesablaşmır. Mənəmmənəmlik edir...

### İran dindən və terrordan alət kimi istifadə edir

İranın iki silahı var: din və terror. Hər ikisindən də öz çirkin məqsədlərini həyata keçirmək üçün istifadə edir. İrana müqəddəs yerlərə ziyarətə gedən insanları, turistləri müxtəlif metodlardan istifadə edərək casusluğa cəlb etməsi bu ölkədə artıq adi hal alıb. Xüsusilə ölkəmizdən İrana gedənləri molla rejimi asanlıqla ram edə bilir. Acınacaqlı haldır ki, mollaların toruna yalnız sadə, az savadlı vətəndaşlarımız deyil, bəzən özünü "ziyalı" adlandıranlar da düşür.

İran əsl niyyətini gizlətmək üçün əsasən iki üsuldan istifadə edir: din və İsraildən. İsrailin əleyhinə təbliğat aparmaqla, guya, "dinin hamisi" "sionist rejimi" ilə vuruşduğu görüntüsünü yaratmağa çalışır. Halbuki minlərlə insanımızın qanını tökmüş, müsəlmanlara zülm etmiş Ermənistanla qucaqlaşır. Məscidlərimizi təhqir edib donuz fermasına çevirən Ermənistana pulsuz silah verir, yardımlar edir. Dünyanın 13 dövləti Xocalı soyqırımını tanıdığı halda İran nəinki bu addımı atdı, hətta əsgərləri ermənilərlə birləşib azərbaycanlıların qanını tökdü. Dindən yalnız çirkin niyyətini həyata keçirmək üçün istifadə edən İran din qardaşlarının qanını tökən Ermənistanla qardaşlıq edir.

Aylardır İranda kütləvi etirazlar baş verir. İnsanlar küçələrə çıxıb sosial şüarlar səsləndirirlər, öz haqları uğrunda rejimə dirəniş göstərirlər. Etirazçılar bəzən küçələrə Azərbaycan bayrağı ilə çıxır, müzzəffər Ali Baş Komandanın portretlərini qaldırırlar. Təbii ki, bu da sonu yaxınlaşmaqda olan molla rejimini daha da qəzəbləndirir, xalqımıza olan kinini bir qədər də artırır. Dövlətimizə qarşı kininin, nifrətinin əsl səbəbini Azərbaycan Respublikasının İsraildə səfirlik açması bəhanəsi ilə gizlətməyə çalışır. Hər an dövlətimizi təhdid etməkdən, bütün gücü ilə Azərbaycana qarşı iyrənc kampaniya aparmaqdan çəkinmir. İran mətbuatı, İran televiziyaları gününü Azərbaycanı aşağılamaqla başlayıb, təhdid etməklə başa vurur. Dəfələrlə İran rəsmiləri, SEPAH generalları açıq şəkildə ölkəmizi təhdid edərək Azərbaycanın İsraildə səfirlik açmasına imkan verməyəcəklərini, Azərbaycan əgər bu işdə ortalığa konkret mövqe qoyarsa, sərt tədbir görəcəklərini xəbərdarlıq şəklində bildirmişdilər. Səfirlikdə terror hadisəsinin baş tutması, Azərbaycanın İsraildə səfirlik açması ilə eyni vaxta düşməsi təsadüfi hadisə ola bilməz. Bu, İran dövlətinin, İran xüsusi xidmət orqanlarının Azərbaycana qarşı indiyə kimi apardığı siyasətin nəticəsidir. Terror aktının İranın xüsusi xidmət orqanları tərəfindən hazırlanıb həyata keçirilməsi və İran dövləti tərəfindən birmənalı olaraq ört-basdır edilməsi faktı ortalıqdadır. Səfirlikdə törədilmiş qanlı cinayət İran dövlətinin Azərbaycana münasibətinin əyani sübutudur. Bunu hələ də anlamayıb, İranı dinin "müdafiəçisi", "hamisi", "islamın vəkili" hesab edənlər varsa, onlar ya İranın agentura şəbəkəsinin üzvləri, ya da müstəqilliyimizi, uğurumuzu gözü götürməyənlər, Azərbaycana qarşı açıq və gizli düşmənçilik edənlərə satılmışlardır. Bunun başqa adı yoxdur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*